**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatının**
**20 illik yubileyinə həsr edilmiş "Ombudsmanların və**
**Milli İnsan Hüquqları Təsisatlarının biznes və insan hüquqları**
**sahəsində rolu" mövzusunda keçirilən**
**Bakı Beynəlxalq Konfransı iştirakçılarının**

# B İ R G Ə   B Ə Y A N N A M Ə S İ

***Bakı şəhəri, 20 oktyabr 2022-ci il***

Biz, (bundan sonra "İştirakçılar" adlandırılacaq) Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatının 20 illiyik yubileyinə həsr edilmiş "Ombudsmanların və Milli İnsan Hüquqları Təsisatlarının (MİHT) biznes və insan hüquqları sahəsində rolu" mövzusunda 2022-ci il 19-20 oktyabr tarixlərində keçirilən Bakı Beynəlxalq Konfransının iştirakçıları olaraq,

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatının biznes və insan hüquqları sahəsindəki fəaliyyətini ***müsbət qiymətləndirərək,***

BMT-nin İnsan Hüquqları Şurası tərəfindən 2011-ci il 16 iyun tarixində yekdilliklə qəbul edilən və əsas məqsədi fərdləri, icmaları biznes fəaliyyətinin insan hüquqlarına mənfi təsirlərindən hansı üsullarla daha yaxşı qoruyacaqları barədə dövlətlərə (hökumətlərə), şirkətlərə və ya digər maraqlı tərəflərə praktiki məsləhətlər verməkdən ibarət olan Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərin (BMTRP) bizneslə bağlı insan hüquqlarına mənfi təsirlərin qarşısının alınması, azaldılması və aradan qaldırılması üçün qlobal səviyyədə tanınmış standartlar olduğunu ***nəzərə alaraq,***

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini və BMTRP-lərini səmərəli şəkildə həyata keçirmək üçün dövlət qurumları, kommersiya və qeyri-kommersiya təşkilatları, habelə vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları (QHT) və media tərəfindən genderə həssaslıq məsələsinə xüsusi diqqət yetirilməsinin, qadınlar və qızların biznes fəaliyyətlərinin dəstəklənməsinin əhəmiyyətini ***qeyd edərək,***

Dünyada baş verən silahlı münaqişələr nəticəsində beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına, habelə beynəlxalq humanitar hüququn tələblərinə zidd olaraq törədilən müharibə cinayətlərinin, o cümlədən sosial-iqtisadi və mədəni infrastrukturun tamamilə dağıdılması, ərazilərin minalarla çirkləndirilməsi, mülki əhalinin həyat və sağlamlığı, biznesin inkişafı üçün ciddi təhlükə yaradan digər vandalizm faktlarına qarşı birgə mübarizənin labüdlüyünü ***diqqətə çatdıraraq,***

Ağır sosial-iqtisadi problemlərə, mənfi siyasi və demoqrafik nəticələrə səbəb olmaqla dünya düzəninin pozulmasına gətirib çıxaran pandemiyaların, təbii fəlakət, ekoloji, texnogen və digər fövqəladə hadisələrin insan hüquqlarına və biznesin inkişafına neqativ təsirlərindən mümkün qədər yayınmaq üçün zəruri tədbirlərin həyata keçirilməsinin mütləq şərt olduğunu ***təsdiq edərək,***

Bir çox hallarda uşaqların erkən yaşlarından sağlamlığına və fiziki imkanlarına uyğun olmayan məcburi əməyə cəlb olunmasının onların keyfiyyətli təhsil almasına, istedadlarının üzə çıxarılmasına, bilik, bacarıq və qabiliyyətlərinin formalaşmasına, hətta fiziki və əqli inkişafına mənfi təsir göstərdiyini narahatlıq hissi ilə ***bildirərək,***

Biznes və insan hüquqları kontekstində uşaqların, qadınların, əlilliyi olan şəxslərin, qacqın, məcburi köçkün və miqrantların, eləcə də əhalinin digər sosial cəhətdən həssas

qruplarının hüquqlarının müdafiəsi ilə bağlı müsbət beynəlxalq təcrübənin öyrənilərək milli səviyyədə tətbiq edilməsinin vacibliyini ***vurğulayaraq,***

Bu baxımdan biznes və insan hüquqları sahəsində fəaliyyət göstərən Ombudsmanları, MİHT-ləri, beynəlxalq təşkilatları, xarici ekspertləri, habelə digər tərəfdaşları bir araya gətirməklə, BMTRP-lərin yaratdığı tendensiyalar və çağırışlar haqqında müzakirələr aparmaq, dialoq və əməkdaşlığı təşviq etmək, müsbət ölkə təcrübələrinin təbliğini həyata keçirmək məqsədinə xidmət edən çox aktual bir mövzuya həsr edilmiş belə bir Beynəlxalq Konfransın Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində yüksək səviyyədə təşkil edildiyini ***alqışlayaraq,***

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ilə Mərakeş Krallığının Ombudsmanı və İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Müstəqil Daimi İnsan Hüquqları Komissiyası arasında həmin konfrans çərçivəsində imzalanan Anlaşma Memorandumlarının tərəflər arasında insan hüquqlarının müdafiəsi, o cümlədən, biznes və insan hüquqları sahəsində səmərəli əməkdaşlığa töhfə verəcəyinə ***inanaraq,***

**aşağıdakılar barədə razılığa gəldiyimizi bəyan edirik:**

- Ombudsmanların, MİHT-lərin, beynəlxalq təşkilatların, xarici ekspertlərin, habelə digər tərəfdaşların, o cümlədən vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə beynəlxalq və milli səviyyədə təşkil edilən konfrans, seminar, habelə digər bu kimi tədbirlərdə biznes və insan hüquqlarının aktual problemlərinə həsr olunan mövzularda birgə müzakirələrin aparılmasını davam etdirmək;
- Dövlətlərin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı, milli maraqlara və ümumbəşəri dəyərlərə söykənən digər məsələlərdə, o cümlədən fundamental insan hüquqlarının qorunması, biznes və insan hüquqlarının inkişafı sahəsində biri-biri ilə həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış etmək;
- Silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarına zidd olaraq törədilən sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətləri nəticəsində insan hüquq və azadlıqlarının kobud şəkildə pozulmasından dərin narahatçılığımızı bildirərək, bu kimi cinayətlərin qarşısının alınması və gələcəkdə təkrar olunmaması məqsədilə beynəlxalq müstəvidə birgə mübarizə aparmaq;
- İnsan hüquqlarına dair normativ-hüquqi aktların iştirakçı dövlətlərin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq biznes və insan hüquqları baxımından təkmilləşdirilməsi sahəsində təkliflər hazırlamaq;
- Biznes və insan hüquqları üzrə effektiv milli qanunvericilik aktlarının qəbul edilməsi, bu sahədə qüvvədə olan qanunvericiliyin qabaqcıl beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi ilə bağlı ombudsmanların və MİHT-lərin parlamentlə əməkdaşlığını davam etdirmək;
- Cəmiyyətdə hüquq düşüncəsinin və hüquq mədəniyyətinin biznes və insan hüquqları kontekstində inkişaf etdirilməsinə yönəlmiş hüquqi maarifləndirmə fəaliyyətini genişləndirmək;
- Biznes və insan hüquqları sahəsində milli fəaliyyət proqramının hazırlanması üzrə xarici ölkələrin təcrübəsinin öyrənmək və tətbiqinə nail olmaq;
- Biznes və insan hüquqlarının təbliği sahəsində aidiyyəti dövlət qurumları, kommersiya və qeyri-kommersiya təşkilatları, habelə vətəndaş cəmiyyəti institutları, o cümlədən QHT və media ilə əməkdaşlığı inkişaf etdirmək;
- BMT və onun ixtisaslaşmış qurumları, Avropa İttifaqı, Avropa Şurası, ATƏT, habelə digər səlahiyyətli beynəlxalq və regional təşkilatlar, həmçinin Ombudsmanlar və MİHT-lər, biznes strukturları, o cümlədən MİHT-lərin Qlobal Alyansı ilə BMTRP-lərin implementasiyası istiqamətində əməkdaşlığı genişləndirmək, bu sahədə müxtəlif

mövzular üzrə birgə layihələr həyata keçirmək;

- Biznes və insan hüquqları sahəsində fəaliyyət göstərən müvafiq qurumların fəaliyyətini əlaqələndirməklə BMTRP-lərinin insanlara irqinə, dərisinin rənginə, yaxud etnik mənsubiyyət və digər bir sıra əlamətlərinə görə heç bir ayrı-seçkiliyə yol verilmədən tam həcmdə həyata keçirilməsinə çalışmaq;

**eyni zamanda:**

İştirakçılar bu Birgə Bəyannaməni qəbul edərək, Ombudsmanlar və MİHT-lərin BMTRP-lərinin uğurla və hərtərəfli həyata keçirilməsində əvəzsiz rolunu nəzərə alaraq, bu təsisatların ikitərəfli əsaslarla və ombudsmanların beynəlxalq təşkilatları çərçivəsində əməkdaşlığının gücləndirilməsinin, informasiya və təcrübə mübadiləsinin, müsbət təcrübənin yayılmasının zəruriliyini diqqətə çatdırır,

Bakı Beynəlxalq Konfransının nəticələrindən məmnun olduğumuzu ifadə edərək Ombudsmanlar və MİHT-lər arasında münasibətlərin daha da inkişaf etdirilməsi işinə öz mühüm töhfəsini verdiyini və yeni perspektivlər açdığını vurğulayır, bu Bəyannamənin müddəalarının milli və beynəlxalq səviyyədə həyata keçirilməsi üçün bütün tərəfdaşları birgə səy göstərməyə və əməkdaşlığa dəvət edir,

**və**

Konfransın yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) minnətdarlığımızı bildirir, təsisatının 20 illik yubileyini təbrik edir, insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən fəaliyyətdə yeni-yeni uğurlar arzulayırıq.

Bu Birgə Bəyannamə Bakı şəhərində 2022-ci il 20 oktyabr tarixində Azərbaycan və ingilis dillərində olmaqla 2 (iki) əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.